RAQUB KƏRİMOV

# QASIM BƏY ZAKİR VƏ MÜASİRLƏRİ



AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

Az. 276060

## RAQUB KƏRİMOV

# QASIM BƏY ZAKİR VƏ MÜASİRLƏRİ

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"Elm və təhsil"
Bakı – 2013

(B-208/5356 şifirli cüngdə Cəfərqulu xan Nəvanın indiyə qədər elm aləminə məlum olmayan üçü azərbaycanca, dördü isə farsca yeddi şeirinə təsadüf etdik. Bu şeirlərdən biri Zakirin kürəkəni Əli bəy Fuladova, ikisi (biri azərbaycanca, digəri farsca) Mirzə Adıgözəl bəyə ünvanlanmış, qalan farsca üç şeirin biri məhərrəmlik təziyəsinə, ikisi isə təbiət təsvirlərinə həsr olunmuşdur. Cəfərqulu xanın Əli bəy Fuladova və Mirzə Adıgözəl bəyə yazdığı şeirlər həcv xarakterli, Zakirə ünvanladığı şeir isə zarafatla, yumoristik hisslərlə qələmə alınmışdır. Cəfərqulu xanın Əli bəyə və Mirzə Adıgözəl bəyə münasibəti məlum idi. Adı çəkilən bu şəxslərin hər ikisi Mehdiqulu xanın ən yaxın adamları olduğu üçün Cəfərqulu xan onları sevmir, intiqam almaq üçün münasib məqam gözləyirdi.

Cəfərqulu xanın əmisi Mehdiqulu xanla soyuq münasibətdə olması da onun Zakirlə münasibətlərinin pozulmasının əsas səbəblərindən biri idi. Cəfərqulu xanın bütün cəhdlərinə baxmayaraq, son nəticədə hakimiyyəti ələ ala bilməməsi və bu yolda çəkdiyi əzab-əziyyətlər onun yadından çıxmır, aşkar olmasa da mübarizəsini gizli davam etdirir, məqsədinə çatmaq üçün fürsət axtarırdı. Onun bu niyyətini başa düşən Mehdiqulu xan ehtiyatı əldən vermir, xanlığın başı üzərində qara bulud kimi fırlanan bu mənhus qüvvəni həmişə nəzarətdə saxlayırdı. Bu işdə onun ən yaxın silahdaşı Əli bəy Fuladov idi. Tarixçi Rzaqulu bəy Mirzə Camal oğlu Vəzirov Əli bəy-Mehdiqulu xan münasibətlərindən bəhs edərkən yazırdı: “Əli bəy xanın ixtiyari-küllisi idi. Onun evi həmə vəqt Kəbirli uçastokunun Ağdam qəryəsində xanın evi ilə bir yerdə olurdu”(182) Əli bəy özünün ağıllı, tədbirli məsləhətləri ilə təkcə Mehdiqulu xana deyil, ümumiyyətlə xanlığa gələn təhlükələrin aradan qaldırılması işində əvəzsiz xidmətlər göstərirdi. Bunu yaxşı anlayan düşmən qüvvələr, xüsusilə də Cəfərqulu xan ona Mehdiqulu xandan daha çox nifrət bəsləyir və ilk növbədə onu aradan götürməyə, yaxud tərksilah etməyə çalışırdı. Digərləri



kimi Cəfərqulu xan da Əli bəydən ehtiyat edir, əksər vaxtlar əmisi Mehdiqulu xanla münasibətlərinin pozulamsında onu əsas səbəbkar hesab edirdi. Şairin bu münasibətlə yazdığı “Kəsməz” rədifli qəzəlində biz bunun aydın təzahürünü görürük. Əlyazmalar İnstitutunun arxivində saxlanılan B-208/5356 şifrli cüngdə gəlib bizə çatan bu qəzəlin başlığında “Kəlami-Cəfərqulu xan ben mərhum Məhəmmədhəsən ağa-yi Cavanşir dər mədh-e Əli bək” qeydindən onun Cəfərqulu xan tərəfindən Əli bəyə ünvanlandığı aydın şəkildə məlum olur. Şeirin birinci beytində Cəfərqulu xan “gözünün ondan su içmədiyini”, belə bir şəxsin hətta çörəyini də yeməyi özünə qəbahət hesab etdiyini yazır:

Gözüm bu şəxsidən su içməz, ağzım yemək kəsməz,
Bu şəxsin dövlətindən yeməyə ağzım çörək kəsməz.

Şeirin dördüncü beytindən hiss olunur ki, Əli bəy hansı münasibətləsə Cəfərqulu xana yaxşılıq etmiş, lakin sonralar etdiyi yaxşlığın minnətini ona vurduğu üçün şair ondan narazı qalmışdır:

Ola bir kimsə aqil, etməz əsla etdiyin minnət,
Bu bir rəsmidir, onu heyf kim, əqli-xərək kəsməz.

Şair növbəti beytdə belə bir iş tutduğu üçün onu hədələyir və bir də belə etsə, onun da əlini qəssabtək kəsəcəyini xəbərdarlıq kimi ona çatdırır:

Kəsərəm, bir də qoysan minnət, o qəssabtək dəstin,
Kəsi kəs dəstini kəsməkdə bilsə incitmək – kəsməz.

Beytin ikinci misrasındakı “dəstini kəsmək” ifadəsi məcazi mənada işlənmişdir. Şair bununla demək istəyir ki, bir kəs

Gəlimmi mən Qarabağa dübarə?
Olmasa gər xandan cüzi işarə,
Əlifbey sarıdan olmanam rahət.

Ümumiyyətlə, Axundzadənin Cəfərqulu xana yazdığı məktublardan onların arasında səmimi dostluq münasibətləri, qarşılıqlı iş birliyi və möhkəm inam olduğu aydın şəkildə görünür. Bu dostluğun nə zaman və haradan başladığını söyləmək çətindir. Lakin bizim fikrimizcə, bu dostluğun kökündə onların dünyagörüşü, məslək birliyi, hər ikisinin rus mədəniyyətinə rəğbəti və mütərəqqi təfəkkür tərzinə malik olmalarıdır. Əgər belə olmasaydı Axundzadə kimi qürurlu bir şəxsiyyət onu özünə dost seçməz, daima onun məktubunun intizarında olmazdı:

Səbəb nədir kim, yazdığım kağıza,
Heç cavab yetişməz bizim diyara?
Lütfi-xan kəm olub yəqin ki, məndən,
Əyləşib könlümə bir belə qara.

Oturub eylərəm fikir hər zaman:
Nə üçün bir kağız yazmaz mənə Xan?
Yəqin ki, bizlərdən olmuş bədgüman,
Kəsildi yol, belə bağlandı ara.(1,164)

Maraqlı faktlardan biri də budur ki, Zakiri özünə mənəvi ata hesab edən Axundzadə Zakir-Nəva münasibətlərindən tam xəbərdar olsa da, işin nədən başlayıb, münasibətlərin niyə pisləşdiyini yaxşı bilsə də, istər Cəfərqulu xana yazdığı məktublarında, istərsə də digər yazılarında qətiyyən bu məsələyə toxunmur.

Yuxarıda sadaladığımız faktlardan məlum oldu ki, Cəfərqulu xanla Qasım bəy Zakir uzun müddət yaxın dost, meh-



riban qohum, sirdaş olmuşlar. Yəqin ki, bu münasibətlərin əsasında onların xüsusiyyətlərinin bir-birinə düz gəlməsi dururdu. Və ola bilməz ki, uzun müddət (50-60 il) dostluq edən bu iki şəxsin münasibətlərinin pozulması, xasiyyətlərinin uyuşmaması ilə bağlı olsun. Bizim fikrimizcə, Zakirlə Cəfərqulu xanın münasibəti Zakirin qardaşı uşaqları Behbud və Rüstəm bəylə əlaqədar olaraq pozulmuşdu. Zakirin M.F.Axundzadəyə yazdığı məktubdan aydın olur ki, Cəfərqulu xan ona bu məsələ ilə əlaqədar vəd vermiş, lakin hansı səbəbdənsə verdiyi sözü yerinə, yetirə bilməmişdi:

Kişi yoxdu, baxma çula-çuxaya,
Adam gərək dağa-daşa toxuya;
«Getmə, getmə» - deyib, qoydu yuxuya,
Axırda itirdi Yekəpər məni.(156,435)

Təbii ki, qohumu, dostu itirmək olar. Çox güman ki, Cəfərqulu xan ona heç yerə gedib şikayət etməməsini tapşırıb və işi özü görəcəyinə söz versə də, onu yerinə yetirə bilməmiş və nəticədə onu «itirmişdir». Bu hadisələr baş verdikdən sonra Zakirlə Cəfərqulu xanın münasibətləri tamamilə pozulmuş, iki yaxın dost barışmaz düşmənə çevrilmişdi. 50-ci illərə qədər Cəfərqulu xana mədhiyyələr deyən Zakir həmin tarixdən sonra onu həcv edərək qəddar, zalım, yaramaz bir şəxs kimi M.F.Axundzadəyə təqdim etməyə çalışmışdır. Bu məqama münasibət bildirən F.Köçərli yazır: «Əgərçi sabiqdə şairin Cəfərqulu xan ilə ülfət və mürafiqəti var imiş..., vəli sonradan nə olubsa bunların mabeynində soyuqluq bəhmə gəlibdir və yuxarıda zikr olunan kəlamdan məlum olur ki, Cəfərqulu xan Zakir haqqında böyük pislik və bədguluq edibdir və hətta M.F.Axundov Zakirin xilasına və safa çıxmağına divan hüzurunda çalışdığı zamanda xani-məzkur ona mümaniət göstərib və bir növ Mirzeyi-mərhumdan rəncidə olubdur. Necə ki bu